**Soğan təsərrüfatlarında aparılan fitosanitar monitorinqlərə dair məlumat (27 sentyabr 2022)**

Milli Monitorinq Planı çərçivəsində Agentlik əməkdaşları tərəfindən soğan bitkisinin ağ çürümə (*Sclerotium cepivorum*), soğan gövdə nematodu (*Ditylenchus dipsaci*), qərb çiçək tripsi (*Frankliniella occidentalis*) və lağımlayıcı milçək növləri (*Liriomyza spp.*) kimi təhlükəli zərərli orqanizmlərinin ölkə ərazisində mövcudluğunu və yayılma arealını müəyyən etmək məqsədilə Siyəzən rayonunun Yenikənd kəndində yerləşən soğan təsərrüfatlarında monitorinqlər aparılıb. Götürülən nümunələrin Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasında müayinələri nəticəsində sadalanan zərərli orqanizmlər müəyyən edilməyib.

Monitorinq zamanı sahibkara və təsərrüfat işçilərinə pestisid və aqrokimyəvi maddələrin saxlanması, istifadəsi zamanı təhlükəsizlik qaydalarına əməl olunması istiqamətində müvafiq tövsiyələr verilib.